# Ədalətin təmini



## Qərbi Azərbaycana qayıdış bölgədə dayanıqlı sülhün bərqərar olması üçün vacibdir

**Cənubi Qafqazda sabitliyin və uzunmüddətli barışın ilk həlledici addımı tarixi Vaşinqton sülh sammitində atıldı. Prezident İlham Əliyevin Ağ Ev rəhbəri Donald Trampın dəvəti ilə avqustun 7-8-də Amerika Birləşmiş Ştatlarına (ABŞ) əldə olunan nailiyyətlər baxımından olduqca səmərəli və zəngin keçən səfəri zamanı həm Bakı Vaşinqton əlaqələrinin strateji müttəfiqlik səviyyəsinə qaldırılması istiqamətində mühüm addımlar atıldı, həm də Cənubi Qafqaz regionunda inkişafın, tərəqqinin təməli olan dayanıqlı sülh üçün geniş qapılar açıldı.**

Vaşinqtonda Ermənistan-Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması, sülh sazişinin mətninin paraflanması məhz Prezident İlham Əliyevin bölgədə dayanıqlı sülh üçün göstərdiyi səylərin nəticələridir. Hətta o da mümkün idi ki, avqustun 8-də ABŞ-də iki ölkə arasında sülh müqaviləsi imzalansın. Lakin Ermənistan konstitusiyasının preambula hissəsində müstəqillik bəyannaməsinə istinadən ölkəmizə qarşı ərazi iddialarının olması buna imkan vermədi.

Sülh müqaviləsinin imzalanması üçün Bakının Ermənistandan qəti tələbi konstitusiyasında dəyişiklik etməsidir. Rəsmi İrəvan siyasi iradə nümayiş etdirərək konstitusiyasını dəyişdirəcəyi təqdirdə yekun sülh mətninin imzalanması istənilən tarixdə baş tuta bilər.

### Soydaşlarımız dinc yolla dədə-baba yurdlarına qayıtmalıdırlar

Sadaladığımız və iki ölkə, eyni zamanda ümumilikdə bölgə adına qazanılan uğurlar həm də bu coğrafiyada yaşayan xalqların firavanlığının təmin olunması baxımından vacib əhəmiyyətə malikdir. Bu mənada vaxtilə indiki Ermənistan ərazilərindən zorla deportasiya edilən, etnik təmizləməyə məruz qalan qərbi azərbaycanlıların qayıdış hüquqlarının təmin olunması üçün də münbit zəmin yaranıb. Qərbi Azərbaycana qayıdış dövlətimizin qarşısına qoyduğu prioritetlərdən biridir. Davamlı olaraq bu məsələ beynəlxalq gündəlikdə saxlanılır və bu istiqamətdə əməli işlər gerçəkləşdirilir. Onu da vurğulayaq ki, indiyə qədər İrəvan bu məsələ ətrafında manipulyasiyalar edərək, guya Qərbi Azərbaycana qayıdışı ölkəmizin Ermənistana ərazi iddiası kimi təqdim etməyə çalışırdı. Ancaq rəsmi Bakı hər zaman bəyan edir ki, soydaşlarımızın dədə-baba yurdlarına qayıdışı sülh yolu ilə olacaq. Prezident İlham Əliyevin 21 may 2025-ci ildə Türkiyənin paytaxtı Ankara şəhərində "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilmiş beynəlxalq konfransın iştirakçılarına müraciətində də vurğulanır ki, qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə Ermənistandakı dədə-baba torpaqlarına qayıdışının təmin edilməsi regionda sülhün, insan hüquqlarının və barışığın bərqərar olması üçün vacib şərtdir. Dövlətimizin başçısının beynəlxalq konfransın iştirakçılarına ünvanladığı həmin müraciəti BMT sənədi kimi yayılıb.

Yeri gəlmişkən bildirək ki, avqustun 8-də Vaşinqtonda sülhün əldə olunması istiqamətində əldə olunan razılaşmaların fonunda bəzi internet resurslarında belə bir iddia da ortaya atılmışdı ki, guya Qərbi Azərbaycan İcması bundan sonra fəaliyyətini davam etdirməyəcək. Təbii ki, bu, absurd iddia idi. Çünki Bakının liderliyi ilə regionda formalaşdırılan indiki sülh şəraitinin həm də Qərbi Azərbaycana qayıdışa böyük təkan verəcəyi gün kimi ortadadır.

Qərbi Azərbaycan İcmasının fəaliyyətini davam etdirməyəcəyi ilə bağlı yerli medianın sualını cavablandıran adıçəkilən icmanın sədri, deputat Əziz Ələkbərli bildirib ki, möhtərəm cənab Prezidentin Ermənistanın baş naziri ilə Vaşinqtonda imzaladığı Birgə Bəyannamə dövlətlərarası münasibətləri tənzimləyən bir sənəddir: "İcmanın fəaliyyəti isə beynəlxalq konvensiyalarda təsbit olunmuş insan hüquqlarının, qayıdış hüququnun təmin edilməsinə yönəlmiş ictimai fəaliyyətdir. Bu mənada, icmanın fəaliyyətinin dövlətlərarası münasibətlərlə, sülh sazişi ilə birbaşa əlaqəsi yoxdur".

"Bizim fəaliyyətimiz dinc yolla öz dədə-baba yurdlarımıza qayıtmaqdan ibarətdir. İcma heç vaxt Ermənistanın suverenliyinə, ərazi bütövlüyünə qarşı çıxmayıb. Cənab Prezidentin vurğuladığı kimi, biz Qərbi Azərbaycana tanklarla yox, maşınlarla qayıdacağıq.

Qərbi Azərbaycan İcması Azərbaycan-Ermənistan normallaşma prosesini alqışlayır və bu istiqamətdə cənab Prezidentin səylərini dəstəkləyir. Ümid edirik ki, sülh gündəliyinin irəliləməsi biz qərbi azərbaycanlıların dinc yolla öz yurdlarımıza dönməsinə şərait yaradacaq. Qərbi Azərbaycan İcması bu sahədə fəaliyyətini bundan sonra da davam etdirəcək", - deyə Ə.Ələkbərli qeyd edib.

### Ləyaqətli qayıdış hüququ

1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin adı 3 avqust 2022-ci ildə dəyişdirilərək "Qərbi Azərbaycan İcması" adlandırılıb. İcmanın yeni Nizamnaməsi təsdiq olunub, Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtmasının təmin edilməsi ilə bağlı Qayıdış Konsepsiyası hazırlanıb. Qayıdış Konsepsiyası indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün Qərbi Azərbaycan İcmasının həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) İrəvan Qazılığının bərpa edilməsi barədə qərar verib. İrəvan Qazılığının Əsasnaməsi də artıq təsdiqlənib. Bütün bunlar yüz minlərlə qərbi azərbaycanlının qayıdış hüququnun təmini istiqamətində görülmüş mühüm işlərdir. Beynəlxalq birlik də qərbi azərbaycanlıların qayıdış hüquqlarını dəstəkləyir. Bu il Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə qəbul edilən Xankəndi Kommünikesində Ermənistandan zorla çıxarılmış azərbaycanlıların öz doğma yurdlarına ləyaqətli qayıdış hüququnun əks olunması da bunu göstərir.

Həmçinin iyunun 21-22-də İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasının yekununda bir sıra qərarlarla yanaşı, ilk dəfə olaraq Qərbi Azərbaycan İcması ilə bağlı qətnamə qəbul olunması da bu qəbildəndir. Sessiyada qəbul olunan İstanbul Bəyannaməsində indiki Ermənistan ərazilərindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququnun mövcudluğu təsdiqlənir və Ermənistan tərəfinin Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılır.

Hazırda bölgədə de-fakto sülh mövcuddur. Ermənistan yekun sülh mətninin imzalanması üçün ev tapşırıqlarını yerinə yetirən kimi, Cənubi Qafqazda de-yure də sülh bərqərar olacaq. Bu kontekstdə Qərbi Azərbaycandan olan soydaşlarımızın tarixi yurdlarına qayıdışları həm beynəlxalq hüququn və ədalətin təmini, həm də regionda dayanıqlı barış üçün vacib əhəmiyyəti ilə ön plana çıxır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 20 avqust (№174).- S.7.